# ABŞ-ın uzaqgörən generalı Duayt Eyzenhauer



**Mürsəl İrəvanlı,**
Yazıçı-publisist,
M. Qorki adına Beynəlxalq mükafat laureatı
Gəncə şəhəri

***II Dünya müharibəsinin ən qızğın vaxtında, 1942-ci ilin 25 iyununda Duayt Eyzenhauer Avropa qitəsində Amerika qoşunlarının baş komandanı təyin olunmuş və Londona gəlmişdir. Bu xəbəri eşidən faşist Almaniyası tez bir zamanda Alman radiosunda elan etmişdi ki, müttəfiqlər çox aparıcı bir vəzifəyə milliyyətcə Alman olan bir şəxsi təyin etmişlər. Bu zaman belə bir sual ortaya çıxır: Alman radiosunun verdiyi məlumat nə dərəcədə düzdür və nəyə əsaslandırılıb? Bir sıra araşdırmalar nəticəsində məlum olmuşdur ki, Duayt Eyzenhauerin babaları XVIII əsrin ortalarında Avropada baş vermiş dini təqiblərdən can qurtarmaq üçün Amerikaya köçmüşlər.***

Duayt Eyzenhauer 1890-cı il 14 oktyabrda Texasda anadan olmuşdu. Lakin həmin illər Duaytın ailəsi maddi cəhətdən çox ağır vəziyyətdə idilər. Buna görə 1891-ci ildə Devid (Duaytın atası) ailəsini götürüb Kanzasa gəlib Abilin şəhərciyində məskən salır. Eyzenhauerlər ailəsi ehtiyac və yoxsulluq içində yaşayırdılar:

Duaytın özündən başqa 6 qardaşı var idi. Çətinliklər içərisində böyüyən Duayt altı yaşında orta məktəbə getdi. O, məktəbdə oxumağı ilə yoldaşlarından fərqlənirdi. O, bir dəfə məktəbdə futbol oynayanda dizindən yaralanır. Az vaxt keçdikdən sonra şiddətli ağrı onu yorğan döşəyə salır. Ayağı tədricən şişir və qızdırması qalxır. Xəstənin diaqnozu qorxulu idi. Qan zəhərlənməsi; həkimin fikrincə, onun ayağı kəsilməlidi. Duayt ayağının kəsilməsinə qəti etiraz etmiş və bildirmişdir ki, şikəst olmaqdansa ölmək yaxşıdır. Tez-tez huşunu itirən Duayt yatağının yanında daim növbə çəkən qardaşı Edqardan xahiş etmişdir ki, o huşunu itirən zaman onun ayağını kəsmək istəsələr qətiyyən imkan verməsin. Edqard xahişi yerinə yetirdi və söz verdi ki, Duaytın ayağının kəsilməsinə imkan verməməlidir. O bildirmişdir ki, Duaytı şikəst etməyə bizim hüququmuz çatmır. Əgər mən öz vədimə əməl etməsəm qardaşım ömrü boyu məni bağışlamaz. Buna baxmayaraq, vaxt keçdikcə Duaytın dizi sağalmağa başladı. Yaşıdları arasında ən yaxşı idmançılardan biri olan Duayt şikəst tale ilə barışa bilmədi.

Duayt gənc yaşlarında kart, qolf oynamağı çox sevirdi. Onun uşaqlıqdan ən böyük arzusu ya ticarətçi, ya da hərbçi olmaq idi. Nəhayət o seçdi. 1911-ci ildə o, Vest-Payntdakı hərbi akademiyaya daxil olmaq üçün imtahan verdi və imtahanlardan əla qiymətlər alaraq akademiyanın kadeti oldu.

Duayt 1915-ci ildə leytenant rütbəsi ilə hərbi akademiyanı qurtarır və Texasa təyinat alır. O, Texasa gedəndə artıq Avropada I Dünya müharibəsi bir il idi ki, başlamışdı. Texasda olanda Duayt orda varlı bir ailənin qızı olan Memi ilə tanış olur və həmin tanışlıqdan sonra onlar bir birini sevməyə başlayırlar və 1917-ci ildə evlənirlər.

***1917-ci il 6 apreldə ABŞ Almaniyaya müharibə elan edir. Həmin vaxtlarda Duayt kapitan rütbəsinə layiq görülmüşdür. Avropa cəbhələrində iştirak etmək onu daha da həvəsləndirirdi. Lakin hələ ki onu arxa cəbhədə saxlamağı üstün tuturdular. O, bir neçə dəfə komandanlığa raport yazaraq, Avropaya - döyüşən ordu sıralarına göndərilməsini xahiş etdi. Nəhayət, onun xahişi yerinə yetirildi və Avropa cəbhəsinə göndərilməsinə icazə verildi. Lakin Avropaya göndərilən gəminin getməyinə bir neçə gün qalmış Almaniya təslim aktını imzaladı və I Dünya müharibəsi sona çatdı.***

O, 1922-ci ildə Panama kanalı zonasına göndərildi və 1924-cü ilədək orada qulluq etdi. O, Panamada o dövrün ən nüfuzlu Amerika generalı olan Konnerin rəhbərliyi altında çalışmışdı. Konner Duayta böyük rəğbət bəsləyirdi və onun bacarığına inanırdı.

Duayt Konnerin zəmanəti ilə, 1925-ci ildə ən nüfuzlu hərbi təhsil ocağı olan Kanzasda komandir hərbi kollecinə daxil olmuş və 1926-cı ildə oranı əla qiymətlərlə başa vurmuşdur.

1932-ci ildə ABŞ ordu qərargahının yeni rəisi Duqlas Mannartur 1933-cü ildə Duayt Eyzenhaueri yanına işləməyə dəvət etdi. Duayt 1935-ci ilə kimi burada çalışmışdır. Həmin il Mannartur vəzifəsindən azad edilmiş və Filippində silahlı qüvvələrin yaradılması üçün göndərilmiş və o, Duaytı özünə köməkçi götürmüşdü. O, 1940-cı ilə kimi Filippində işlədi. 1939-cu il sentyabrın 1-də II Dünya müharibəsi başlamışdı. Bu zaman Duayt Eyzenhauer fikirləşirdi ki, bu müharibədə ABŞ hökmən iştirak edəcək. Bunun üçün o, Vətənə qayıtmağı planlaşdırdı və 1940-cı ildə ABŞ-a qayıtdı. Onun bu uzaqgörənliyi özünü doğrultdu və ona iri addımlarla addımlamağa imkan yaratdı.

1941-ci il 7 dekabrda Yaponlar Pril-Xarbora hücum etdilər. Bununla yeni bir müharibə Amerika-Yapon müharibəsi başladı.

***Müharibə başlayanda hərbi qərargahın rəisi Marşalın çağırışı ilə Duayt Eyzenhauer Vaşinqtona gəldi və 1942-ci ilin fevralında Amerika qərargahında hərbi əməliyyatların planlaşdırılması idarəsinin rəisi vəzifəsinə təyin olundu.***

***Bu vaxt İngiltərə-Amerika komandanlıqları 2-ci cəbhənin açılması planını hazırlayırdılar. 1-ci plan İngiltərə tərəfindən irəli sürüldü. Bu plan Afrikadan Avropaya daxil olmaq idi. Lakin D.Eyzenhauer bu planın əleyhinə çıxdı və La-Manşı keçib Fransa ərazisinə daxil olmaq planını irəli sürdü. Uzun mübahisələrdən sonra D.Eyzenhauerin planı qəbul edildi. Bu plan qəbul olunduqdan sonra II cəbhənin açılması zamanı hərbi əməliyyatlara rəhbərlik D.Eyzenhauerə həvalə edildi.***

1943-cü ildə Stalinqrad və Kursk döyüşlərində cəbhədə gözlənilməz dönüş yarandı. Faşistlər cəbhələrdə Sovet qoşunları tərəfindən sıxışdırılırdı. Bu zaman müttəfiqlər 2-ci cəbhənin açılmasını tezləşdirmək qərarına gəldilər.

1943-cü ilin avqustunda görüşən Ruzvelt və Corçil 2-ci cəbhənin açılmasını 1944-cü ilin may ayına planlaşdırdılar. Lakin əməliyyat 1944-cü ilin iyun ayına kimi gecikdirildi. 1944-cü il iyunun 6-da “Overlord” əməliyyatı başladı. Müttəfiqlər La-Manşı keçib Fransaya daxil oldular. Əməliyyata Duayt Eyzenhauer rəhbərlik edirdi. Duayt Eyzenhauer İ.V.Stalinə yazdığı məktubunda bildirmişdi ki, onların məqsədi aprelin 1-nə kimi Fransa mühasirəyə alıb tutmaq, sonra sovet qoşunları ilə bir vahid cəbhə yaratmaqdır. 1945-ci il aprelin əvvəllərində qərbdən Amerika-İngilis birləşmiş qoşunları, şərqdən isə Sovet qoşunları güclü hücuma keçərək Almanları cəbhə xətlərində sıxışdırmağa başladılar. 1945-ci il aprelin 25-də Sovet və müttəfiq qoşunları Elbada görüşdülər. Bu görüş II Dünya müharibəsinin qurtarmasının rəmzi hadisəsi idi. Elbada görüş San-Fransiskoda BMT-nin təsis konfransının açılış gününə təsadüf edirdi. Duayt Eyzenhauer Elbadakı görüşə böyük hərbi siyasi əhəmiyyətə malik hadisə kimi baxırdı.

1945-ci ilin may ayının 8-də almanlar təslim oldular. Yuxarıda göstərilən faktlardan göründüyü kimi, Duayt Eyzenhauer 2-ci Dünya müharibəsi illərində faşist Almaniyası və onun müttəfiqlərinin darmadağın edilməsində mühüm rol oynamışdı.

Duayt Eyzenhauer 1945-ci ilin yayında ABŞ-a qayıtdı. O, 1945-1947-ci illərdə ABŞ qərargah rəisləri komitəsinin sədri, 1947-1949-cu illərdə isə ABŞ-da ən nüfuzlu universitet olan Kolumbiya universitetinin prezidenti oldu.

1949-cu ildə ABŞ-ın rəhbərliyi ilə yaradılan hərbi siyasi blok olan NATO-un hərbi qərargahının komandiri vəzifəsinə təyin edildi. NATO silahlı qüvvələrinin baş komandanı kimi Duayt Eyzenhauer ABŞ-ın xarici siyasət planlarının icraçısı idi. NATO silahlı qüvvələrinin baş komandanı vəzifəsi onun nüfuzunun daha da artmasına səbəb oldu.

O, 1952-ci ildə Respublikaçılar partiyası tərəfindən prezidentliyə namizəd verildi və 55% səslə seçkilərdə qalib gəldi.

Duayt Eyzenhauer prezident olandan sonra vitse prezident gələcək prezident Ricard Nikson oldu. Dövlət xarici işlər siyasətini həyata keçirən dövlət katibi vəzifəsinə görkəmli diplomat Con Foster Dalles təyin edildi. Duayt prezidentliyinin ilk illərində ABŞ-ın Koreyada və Vyetnamda apardığı avantürist müharibələrə son qoydu.

O, 1959-cu ildə növbəti seçkidən bir ay əvvəl ağır xəstələndi. Onun mədəsində xərçəng xəstəliyi aşkar olunmuşdu. Cərrahiyyə əməliyyatından sonra onun səhhəti yaxşılaşdı və növbəti dəfə prezidentliyə namizədliyini verdi. 1956-cı ilin 14 noyabrda keçirilən seçkilərdə qalib gələrək 2-ci dəfə prezident seçildi. 2-ci prezident müddətində o əvvəlki illərə nisbətən səhhəti ilə əlaqədar güclü işləyə bilmirdi.

***Duayt Eyzenhauer 8 illik prezidentliyi dövründə hərbi sənayenin inkişafına çox diqqətlə yanaşırdı, Amerikanın dünyaya hökmranlığı prinsipinə ən ümdə məsələ kimi baxardı.***

***Onun 2-ci prezidentlik müddəti 1960-cı ildə sona çatdı. Prezidentlik müddəti qurtardıqdan sonra Duayt Eyzenhauer ümumi olaraq “Prezidentlik illəri” adı altında birləşdirilmiş iki cildlik xatirələrini nəşr etdirmişdir.***

***1969-cu ildə, Amerika hərb tarixinə qızıl hərflərlə yazılmış general Duayt Eyzenhauer 79 yaşında vəfat etdi. Məzarı doğulduğu Texas şəhərindədir.***



***Müharibə başlayanda hərbi qərargahın rəisi Marşalın çağırışı ilə Duayt Eyzenhauer Vaşinqtona gəldi və 1942-ci ilin fevralında Amerika qərargahında hərbi əməliyyatların planlaşdırılması idarəsinin rəisi vəzifəsinə təyin olundu. Bu vaxt İngiltərə-Amerika komandanlıqları 2-ci cəbhənin açılması planını hazırlayırdılar. 1-ci plan İngiltərə tərəfindən irəli sürüldü. Bu plan Afrikadan Avropaya daxil olmaq idi. Lakin D.Eyzenhauer bu planın əleyhinə çıxdı və La-Manşı keçib Fransa ərazisinə daxil olmaq planını irəli sürdü. Uzun mübahisələrdən sonra D.Eyzenhauerin planı qəbul edildi. Bu plan qəbul olunduqdan sonra II cəbhənin açılması zamanı hərbi əməliyyatlara rəhbərlik D.Eyzenhauerə həvalə edildi.***